# (HƏDIS (28 10

<"xml encoding="UTF-8?>

HƏDIS (28) 10

Hədis 270: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın malında gözü olan şəxs həmişə qəmgin olar.”

* * *

Hədis 271: Həzrət Məhəmməd (s) buyurur: “Xoş o kəsin halına ki, Allah qorxusu onu xalqın qorxusundan uzaqlaşdırmışdır.”

* * *

Hədis 272: Həzrət Əli (ə) buyurur: “Heç bir iş sənin başını qatıb axirət işindən uzaqlaşdırmamalıdır. Çünki ömür olduqca qısadır.”

* * *

Hədis 273: Həzrət Məhəmməd (s) buyurur: “Əzabı və əvəzi daha tez çatan günah ne`mətə qarşı naşükürlükdür.”

* * *

Hədis 274: Həzrət Məhəmməd (s) buyurur: “Özünü fəqirliyə vuran fəqir olar.”

* * *

Hədis 275: İmam Həsən (ə) buyurur: “Yaxşılıq odur ki, əvvəldə hey bu gün-sabaha salınmasın və sonradan da minnət qoyulmasın.”

* * *

Hədis 276: İmam Həsən (ə) buyurur: “Zarafat insanın zəhmini azaldar və az danışan şəxs öz zəhmini artırar.”

* * *

Hədis 277: İmam Həsən (ə) buyurur: “Düşünün, çünki düşüncə bəsirətli qəlb üçün həyat səbəbidir.”

* * *

Hədis 278: İmam Əli (ə) buyurur: “Tövbə və bağışlanma yolu olduğu halda ümidsizliyə qapılan şəxsə təəccüb edirəm.”

* * *

”.Hədis 279: İmam Həsən (ə) buyurur: “Oğlum, bir şəxsi yaxşı tanımamış, onunla dostluq etmə

* * *